*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2006-cı il 7 iyun tarixli 28/107 saylı Qərarı ilə təsdiq edilmiş, 2009-cu il 24 avqust tarixli 23-10 saylı və 2014-cü il 29 may tarixli 1/7 saylı qərarları ilə dəyişikliklər edilmişdir.*

# Bələdiyyə seçkilərində namizədlərin siyasi partiyalar və siyasi partiyaların blokları tərəfindən irəli sürülməsi qaydaları haqqında

# T Ə L İ M A T

Azərbaycan Respublikasında bələdiyyə seçkilərində siyasi partiya və siyasi partiyaların blokları tərəfindən bələdiyyə üzvlüyünə namizəd və ya namizədlərin irəli sürülməsi qaydaları Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 54-cü, 212-ci, 214-cü maddələri və bu Təlimatla tənzimlənir.

## 1. Ümumi müddəalar

1.1. Bələdiyyə üzvlüyünə namizədlər seçkilərin təyin edilməsi haqqında qərar rəsmi dərc olunduqdan sonra irəli sürülür.

1.2. Siyasi partiyalar və siyasi partiyaların blokları passiv seçki hüququna malik olan və Seçki Məcəlləsinin 212-ci maddəsinin tələblərinə cavab verən vətəndaşları onların razılığı ilə qanunvericilikdə nəzərdə tutulmuş qaydada bələdiyyə üzvlüyünə namizəd irəli sürə bilərlər.

## 2. Namizədlərin siyasi partiyalar və siyasi partiyaların blokları tərəfindən irəli sürülməsi qaydaları

2.1. Siyasi partiya öz nizamnaməsinə uyğun olaraq namizədin və ya namizədlərin irəli sürülməsi haqqında qərarı səsvermə yolu ilə kollegial qaydada qəbul edir.

2.2. Siyasi partiyaların bloku tərəfindən irəli sürülən namizəd və ya namizədlər bloka daxil olan hər bir siyasi partiya tərəfindən təsdiq edilir. Siyasi partiyaların blokları tərəfindən namizəd və ya namizədlərin irəli sürülməsi haqqında qərar siyasi partiyaların nümayəndələrinin iclasında (qurultayında, konfransında, rəhbər orqanının iclasında) qəbul edilir. Siyasi partiyaların bu səlahiyyətli nümayəndələri partiyaların qurultayında (konfransında, rəhbər orqanının iclasında) müəyyənləşdirilir.

2.3. Namizəd və ya namizədlərin irəli sürülməsi barədə siyasi partiyanın, siyasi partiyalar blokunun qərarı protokolla rəsmiləşdirilir. Həmin protokolda aşağıdakılar göstərilir:

2.3.1. iclasda (qurultayda, konfransda, rəhbər orqanın iclasında) iştirak etmək üçün qeydə alınmış iştirakçıların sayı;

2.3.2. siyasi partiyalar blokunun yaradılması haqqında sazişdə nəzərdə tutulan qərarın qəbul edilməsi üçün lazım olan iştirakçıların sayı;

2.3.3. namizədin irəli sürülməsi barədə qərar və bu qərar üzrə səsvermənin nəticələri;

2.3.4. qərarın qəbul edilməsi tarixi.

2.4. Siyasi partiya, siyasi partiyaların bloku bloka daxil olan partiyaların üzvü olmayan şəxsləri namizəd kimi irəli sürə bilərlər.

**3. Siyasi partiyalar tərəfindən bələdiyyə üzvlüyünə namizəd və ya namizədlər irəli sürülərkən siyasi partiyanın səlahiyyətli nümayəndəsi müvafiq dairə seçki komissiyasına namizədin adı ilə birlikdə aşağıdakı sənədləri təqdim etməlidir:**

3.1. siyasi partiyanın qeydə alınması barədə şəhadətnamənin notariat qaydasında təsdiqlənmiş surəti;

3.2. siyasi partiyanın qüvvədə olan nizamnaməsinin notariat qaydasında təsdiqlənmiş surəti;

3.3. namizəd və ya namizədlərin irəli sürülməsi barədə siyasi partiyanın qurultayının (konfransının, rəhbər orqanının iclasının) qərarı və müvafiq iclasın protokolu;

3.4. hər bir namizədin irəli sürülməsi barədə ayrı-ayrılıqda tərtib edilmiş bildiriş (Təlimata 1 saylı əlavə) *(bu bildirişin surəti Seçki Məcəlləsinin 226.3-cü maddəsinə uyğun olaraq dairə seçki komissiyası tərəfindən təsdiq edilərək müvafiq səlahiyyətli nümayəndəyə verilir)*;

3.5. bələdiyyə üzvlüyünə namizədin öhdəlik ərizəsi (Təlimata 2 saylı əlavə) (ərizədə bələdiyyə üzvlüyünə namizədliyi irəli sürülmüş şəxsin soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi, əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü), məhkumluğuna, vətəndaşlığına və başqa dövlətlər qarşısında öhdəliyinin olub-olmamasına dair məlumatlar, habelə bələdiyyə üzvü seçiləcəyi halda, həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyi barədə öhdəliyi göstərilməlidir);

3.6. səlahiyyətli nümayəndələrin təyin edilməsi barədə siyasi partiyanın qurultayının (konfransının, rəhbər orqanının iclasının) qərarı;

3.7. siyasi partiyaların səlahiyyətli nümayəndələrinin Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada rəsmiləşdirilmiş vəkalətnamələri (Bu Təlimatın 4, Qeyddə göstərilmiş Təlimatın 3 “c” saylı əlavəsi);

3.8. siyasi partiyaların səlahiyyətli nümayəndələrinin siyahısı (Bu Təlimatın 5, Qeyddə göstərilmiş Təlimatın 2 saylı əlavəsi).

3.9. Siyasi partiyaların səlahiyyətli orqanı səlahiyyətli nümayəndənin səlahiyyətinə xitam verdiyi halda, bu barədə qərarın surəti Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyasına təqdim edilməlidir.

3.10. Dairə seçki komissiyasına təqdim edilmiş sənədlərin alınması barədə yazılı arayış siyasi partiyanın səlahiyyətli nümayəndəsinə verilir (Təlimata 3 saylı əlavə).

**4. Siyasi partiyalar tərəfindən Mərkəzi Seçki Komissiyasına aşağıdakı sənədlər təqdim edilməlidir:**

4.1. siyasi partiyaların səlahiyyətli nümayəndələrinin, habelə maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin siyahıları (Bu Təlimatın 5 və 5 "a", Qeyddə göstərilmiş Təlimatın 2 və 2 "a" saylı əlavələri);

4.2. siyasi partiyaların səlahiyyətli nümayəndələrinin, habelə maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin razılıq məktubları (Bu Təlimatın 6 və 6 "a", Qeyddə göstərilmiş Təlimatın 1 və 1 "a" saylı əlavələri).

4.3. Mərkəzi Seçki Komissiyasında qeydə alındıqları zaman, habelə qeydə alındıqdan sonra səlahiyyətli nümayəndə və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilibsə, siyasi partiyalar bloku da müvafiq sənədləri Mərkəzi Seçki Komissiyasına təqdim etməlidir.

**5. Siyasi partiyalar bloku tərəfindən namizəd və ya namizədlər irəli sürülərkən siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi müvafiq dairə seçki komissiyasına namizədin adı ilə birlikdə aşağıdakı sənədləri təqdim etməlidir:**

5.1. siyasi partiyaların blokuna daxil olan siyasi partiyaların qurultaylarının (konfranslarının, rəhbər orqanının iclasının) namizəd və ya namizədləri irəli sürmək barədə qərarları ilə birlikdə müvafiq iclasların protokolları;

5.2. siyasi partiyaların blokuna daxil olan siyasi partiya nümayəndələri iclasının (qurultaylarının, konfranslarının) siyasi partiyaların bloku adından namizəd və ya namizədlərin irəli sürülməsi haqqında qərarı və müvafiq iclasın protokolu;

5.3. siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinin Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada və ya notariat qaydasında rəsmiləşdirilmiş vəkalətnamələri (Bu Təlimatın 7, 7 "a", 7 "b" və 7 "c", Qeyddə göstərilmiş Təlimatın 3 "d", 3 "e", 3 "ə" və 3 "f" saylı əlavələri);

5.4. siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinin siyahıları (Bu Təlimatın 5 və 5 "a", Qeyddə göstərilmiş Təlimatın 2 və 2 "a" saylı əlavələri);

5.5. siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinin səlahiyyətli nümayəndə olmağa razılığı barədə yazılı məktubları (Bu Təlimatın 6 və 6 "a", Qeyddə göstərilmiş Təlimatın 1 və 1 "a" saylı əlavələri);

5.6. bələdiyyə üzvlüyünə namizədliyi irəli sürülmüş şəxsin soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi, əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü), məhkumluğuna, vətəndaşlığına dair və başqa dövlətlər qarşısında öhdəliyinin olub-olmaması barədə məlumatlar, habelə bələdiyyə üzvü seçiləcəyi halda, həmin vəzifə ilə

uzlaşmayan fəaliyyətə xitam verəcəyi barədə öhdəliyi göstərilmiş razılıq ərizəsi (Təlimata 2 saylı əlavə);

5.7. hər bir namizədin irəli sürülməsi barədə ayrı-ayrılıqda tərtib edilmiş bildiriş (Təlimata 1 saylı əlavə) *(bu bildirişin surəti Seçki Məcəlləsinin 226.3-cü maddəsinə uyğun olaraq dairə seçki komissiyası tərəfindən təsdiq edilərək müvafiq səlahiyyətli nümayəndəyə verilir)*.

5.8. Dairə seçki komissiyasına təqdim edilmiş sənədlərin alınması barədə yazılı arayış siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsinə verilir (Təlimata 3 saylı əlavə).

**Qeyd:** *Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 18 iyul 2008-ci il tarixli 7/27-2 saylı Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) namizədin, siyasi partiyaların, siyasi partiyalar bloklarının və referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələrinin statusu haqqında” Təlimat*

*Təlimata 1 saylı əlavə*

**Bələdiyyə seçkilərində bələdiyyə üzvlüyünə namizəd irəli sürülməsi haqqında**

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 54-cü, 212-ci, və 214-cü maddələrinə uyğun olaraq ___________________________________________
*(siyasi partiya, siyasi partiyalar bloku)*
tərəfindən Azərbaycan Respublikasının vətəndaşı ______________________
___________________________________________________________________
*(namizədin soyadı, adı, atasının adı, doğum tarixi,*
___________________________________________________________________
*yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən*
___________________________________________________________________
*sənədin seriya və nömrəsi, əsas iş və ya xidmət yeri,*
___________________________________________________________________
*tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü)*

__________________________________təyin olunmuş bələdiyyə seçkilərində
*(seçkilərin keçiriləcəyi tarix)*
________________________bələdiyyəsinin üzvlüyünə namizədliyi irəli sürülür.
*(bələdiyyənin adı)*

Bildirişə öhdəlik ərizəsi əlavə olunur.

**Siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi** ____________ ____________________________
*(imza)* *(inisialı və soyadı)*

"_____" _________________20___ il.
*(bildirişin verilmə tarixi)*

*Təlimata 2 saylı əlavə*

_____saylı_____________seçki dairəsinin dairə seçki komissiyasına

_________________________________
*(siyasi partiyanın, siyasi partiyalar blokunun adı)*
tərəfindən bələdiyyə seçkilərində bələdiyyə üzvlüyünə namizədliyi irəli sürülmüş şəxsin

**R A Z I L I Q   Ə R İ Z Ə S İ**

Mən, _________________ ildə anadan olmuş, ____________________
*(doğum tarixi)* *(yaşayış yerinin ünvanı)*

___________________________________ yaşayan, ______________təhsilli,

________________________________________________________malik olan,
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi)*
__________________________________________ işləyən (fəaliyyət göstərən),
*[əsas iş və ya xidmət yeri, tutduğu vəzifə*
*(bu olmadıqda – fəaliyyət növü)]*

_______________________________________ __________________________
*(namizədin soyadı, adı, atasının adı)* *(seçkilərin keçiriləcəyi tarix)*
tarixdə keçiriləcək bələdiyyə seçkilərində
__________________________________________________________________
*(siyasi partiyanın, siyasi partiyalar blokunun adı)*
tərəfindən bələdiyyə üzvlüyünə namizədliyimin irəli sürülməsinə razılıq verirəm.

Mənim ödənilməmiş və ya üzərimdən götürülməmiş məhkumluğum
________________________________.
*(olub-olmamasına dair məlumat)*
Ödənilməmiş və ya üzərindən götürülməmiş məhkumluğu olduqda:
__________________________________________________________________
*(Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsinin adı və*
__________________________________________________________________
*nömrəsi, xarici ölkədə cinayət məsuliyyəti yaradan əməl olmuşdursa və*
__________________________________________________________________
*bu haqda qanuni qüvvəyə minmiş məhkəmə hökmü çıxarılmışdırsa və bu əməl*
__________________________________________________________________
*Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan cinayət məsuliyyəti yaradırsa,*
__________________________________________________________________
*xarici ölkənin müvafiq qanununun adı)*

Azərbaycan Respublikasının vətəndaşıyam, seçkilərdə iştirak etmək hüququna malikəm, ikili vətəndaşlığım və başqa ölkələr qarşısında öhdəliklərim ______________________________.

*(yoxdur/ vardır)*

İkili vətəndaşlığı və ya başqa ölkələr qarşısında öhdəliyi olduqda:

________________________________________________________________

*(həmin ölkənin adı və öhdəliyin məzmunu)*

________________________________________________________________

______________________________tarixdə keçiriləcək bələdiyyə seçkilərində

*(seçkilərin keçiriləcəyi tarix)*

bələdiyyə üzvlüyünə namizədliyimin irəli sürülməsinin mənim iradəmə uyğunluğunu bildirirəm və bələdiyyə üzvü seçiləcəyim halda, həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyimi öhdəmə götürürəm.

__________________________________________________üzvüyəm,

*(mənsub olduğu siyasi partiyanın adı və abreviaturası)*

bələdiyyə üzvlüyünə namizədliyim qeydə alındığı halda, seçki bülletenində siyasi partiyaya mənsubiyyətim _____________________________________

*(göstərilib-göstərilməməsinə dair məlumat)*

______________ __________________________________________________

*(imza)* *(soyadı, adı, atasının adı)*

“______” ________________20____il.

**Qeyd:** *Azərbaycan Respublikası Seçki Məcəlləsinin 40.15-ci maddəsinin tələbinə uyğun olaraq razılıq ərizəsinə namizədin 3x4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkli əlavə olunmalıdır.*

*Təlimata 3 saylı əlavə*

# A R A Y I Ş

“_____” ____________20____ il                                        Saat ________

Verilir__________________________________________________

*(sənədləri təqdim edən şəxsin soyadı, adı, atasının adı)*

ondan ötrü ki, o, həqiqətən____________________________________________

*(namizədin soyadı, adı, atasının adı)*

bələdiyyə üzvlüyünə namizədliyinin irəli sürülməsinin təsdiq edilməsi üçün aşağıdakı sənədləri _______ saylı ___________________________________

*(seçki dairəsinin adı)*

seçki dairəsinin dairə seçki komissiyasına təqdim etmişdir:

1.
2.
3.
4.
5.
6.

_________________________ ________ ________________________

*(sənədi qəbul edən şəxsin vəzifəsi)* *(imzası)* *(soyadı, adı, atasının adı)*

M.Y

_________________________ ________ ________________________

*(sənədi təqdim edən şəxsin statusu)* *(imzası)* *(soyadı, adı, atasının adı)*

**Qeyd:** *sənədləri dairə seçki komissiyasına siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi təqdim edə bilər.*
*Bu arayış 2 nüsxədən ibarət tərtib edilməli, 1 nüsxəsi dairə seçki komissiyasında qalmalı, digər nüsxəsi isə sənədləri təqdim edən şəxsə verilməlidir.*

*Təlimata 4 saylı əlavə*

**V Ə K A L Ə T N A M Ə**

_______________________________________________

*(siyasi partiyanın adı)*

“____” ________________ 20 ____ il tarixli qurultayının (konfransının, rəhbər orqanının iclasının) ________ saylı qərarına əsasən

____________________________________________________yaşayan,

*(yaşayış yerinin ünvanı)*

___________________________________________________malik olan

*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi)*

___________________________________________________________

*(soyadı, adı, atasının adı)*

“____”__________20___ il tarixə təyin edilmiş________________seçkilərdə

*(seçkilərin adı)*

həmin siyasi partiyanın səlahiyyətli nümayəndəsi qismində qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirmək həvalə edilmişdir.

_______________ ______________________________________

*(imza)* *(siyasi partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı)*

**Qeyd:** *1. Vəkalətnamə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada təsdiq olunmalıdır.*
*2. Səlahiyyətli nümayəndənin səlahiyyət dairəsini həmin səlahiyyəti verən şəxs müəyyən edir. Belə olduqda, vəkalətnamədə bu hal öz əksini tapmalıdır.*
*3. Bu əlavə “Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) namizədin, siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələrinin statusu haqqında” Təlimatın 3 “c” saylı əlavəsidir.*

*Təlimata 5 saylı əlavə*

____________________________________
*(seçki komissiyasının adı)*

____________________________________________________________
*(siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun adı)*

**siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupu tərəfindən təyin edilmiş səlahiyyətli nümayəndələrin**

**S İ Y A H I S I**

| Sıra sayı | Soyadı, adı, atasının adı | Doğulduğu il (18 yaşlı şəxsin həm də doğulduğu ay və gün) | Şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi | Yaşayış yerinin ünvanı | Əsas iş və ya xidmət yeri, tutduğu vəzifə, (bu olmadıqda – fəaliyyət növü) | Telefon №-si |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

**Səlahiyyətli şəxs** __________ ____________________
*(imza)* *(inisialı və soyadı)*

**Qeyd:** *bu əlavə "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) namizədin, siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələrinin statusu haqqında" Təlimatın 2 saylı əlavəsidir.*

*Təlimata 5 "a" saylı əlavə*

____________________________________
*(seçki komissiyasının adı)*

______________________________________________________________________
*(siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun adı)*

**siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupu tərəfindən təyin edilmiş maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin**

## S İ Y A H I S I

| Sıra sayı | Soyadı, adı, atasının adı | Doğulduğu il (18 yaşlı şəxsin həm də doğulduğu ay və gün) | Şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi | Yaşayış yerinin ünvanı | Əsas iş və ya xidmət yeri, tut-duğu vəzifə, (bu olmadıqda – fəaliyyət növü) | Telefon №-si |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

**Səlahiyyətli şəxs** __________ ____________________
*(imza)* *(inisialı və soyadı)*

**Qeyd:** *bu əlavə "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) namizədin, siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələrinin statusu haqqında" Təlimatın 2 "a" saylı əlavəsidir.*

*Təlimata 6 saylı əlavə*

__________________________________
*(siyasi partiyalar, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun adı)*

Azərbaycan Respublikasında keçirilən

__________________________________
*(seçkilərin (referendumun) adı)*

seçkilər(in)də (referendumda) siyasi partiya, siyasi partiyalar bloku, referendum üzrə təşviqat qrupu tərəfindən təyin edilmiş səlahiyyətli nümayəndənin

**R A Z I L I Q   M Ə K T U B U**

Mən,_________________________________________________
*(soyadı, adı, atasının adı)*

Azərbaycan Respublikasında keçirilən____________________________
*(seçkilərin (referendumun) adı)*

(namizədi) qeydə alınmış ______________________________________
*(siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun adı)*

tərəfindən səlahiyyətli nümayəndə təyin edilməyimə razılıq verirəm.

Bildirirəm ki, "____" __________________ _____ ildə anadan olmuşam,
*(doğum tarixi)*

____________________________________________________________
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi*

____________________________________________________________
*və verilmə tarixi, yaşayış yerinin ünvanı, əsas iş və ya xidmət yeri,*

____________________________________________________________
*tutduğu vəzifəsi (bu olmadıqda – fəaliyyət növü), telefon nömrəsi)*

______________ _____________________________________________
*(imza)* *(səlahiyyətli nümayəndənin inisialı və soyadı)*

"_____" ___________________20_____ il
*(ərizənin verilmə tarixi)*

**Qeyd:** *1. Ərizəyə 3x4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil əlavə edilməlidir.*
*2. Siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun səlahiyyətli nümayəndələrinin siyahılarına əlavə edilərək, Mərkəzi Seçki Komissiyasına göndərilən razılıq ərizələrinə fotoşəkil əlavə olunmur.*
*3. Bu əlavə "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) namizədin, siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələrinin statusu haqqında" Təlimatın 1 saylı əlavəsidir.*

*Təlimata 6 ”a” saylı əlavə*

__________________________________________
*(siyasi partiyalar, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun adı)*

Azərbaycan Respublikasında keçirilən
__________________________________________
*(seçkilərin (referendumun) adı)*
seçkilər(in)də (referendumda) siyasi partiya, siyasi partiyalar bloku, referendum üzrə təşviqat qrupu tərəfindən təyin edilmiş maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndənin

## R A Z I L I Q   M Ə K T U B U

Mən,__________________________________________________________
*(soyadı, adı, atasının adı)*
Azərbaycan Respublikasında keçirilən__________________________________
*(seçkilərin (referendumun) adı)*
(namizədi) qeydə alınmış _____________________________________________
*(siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun adı)*
tərəfindən maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilməyimə razılıq verirəm.

Bildirirəm ki, “_____” __________________ _____ildə anadan olmuşam,
*(doğum tarixi)*

_________________________________________________________________
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi*

_________________________________________________________________
*və verilmə tarixi, yaşayış yerinin ünvanı, əsas iş və ya xidmət yeri,*

_________________________________________________________________
*tutduğu vəzifəsi (bu olmadıqda – fəaliyyət növü), telefon nömrəsi)*

_______________   ________________________________
*(imza)*   *(inisialı və soyadı)*

“_____” ___________________20____il
*(ərizənin verilmə tarixi)*

**Qeyd:** *1. Ərizəyə 3x4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil əlavə edilməlidir.*
*2. Siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin siyahılarına əlavə edilərək, Mərkəzi Seçki Komissiyasına göndərilən razılıq ərizələrinə fotoşəkil əlavə olunmur.*
*3. Bu əlavə “Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) namizədin, siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələrinin statusu haqqında” Təlimatın 1 “a” saylı əlavəsidir.*

*Təlimata 7 saylı əlavə*

# V Ə K A L Ə T N A M Ə

_________________________siyasi partiyalar bloku nümayəndələrinin
*(siyasi partiyalar blokunun adı)*
iclasının “____”_____________20___il tarixli______saylı qərarına əsasən

_____________________________________________________________yaşayan,
*(yaşayış yerinin ünvanı)*
_____________________________________________________________malik olan
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi)*

________________________________________________________________________
*(soyadı, adı, atasının adı)*

“____”__________20___il tarixə təyin edilmiş___________________________________
*(seçkilərin adı)*
seçkilərində həmin siyasi partiyalar blokunun adından səlahiyyətli nümayəndə qismində qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirmək həvalə edilmişdir.

Siyasi partiyalar blokuna daxil olan partiyaların sədrləri:

1.______________________________________________________________________
(*partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı)*
2.______________________________________________________________________
(*partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı)*
3.______________________________________________________________________
(*partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı)*

.
.
.

________________________________________________________________________
(*partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı)*

**Qeyd:** *1. Vəkalətnamə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada təsdiq olunmalıdır.*
*2. Səlahiyyətli nümayəndənin səlahiyyət dairəsini həmin səlahiyyəti verən şəxs müəyyən edir. Belə olduqda, vəkalətnamədə bu hal öz əksini tapmalıdır.*
*3. Bu əlavə “Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) namizədin, siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələrinin statusu haqqında” Təlimatın 3 “d” saylı əlavəsidir.*

*Təlimata 7 ”a” saylı əlavə*

## V Ə K A L Ə T N A M Ə

_________________________siyasi partiyalar bloku nümayəndələrinin
*(siyasi partiyalar blokunun adı)*
iclasının “____”____________ 20 ___ il tarixli______saylı qərarına əsasən

_____________________________________________________ yaşayan,
*(yaşayış yerinin ünvanı)*
_____________________________________________________malik olan
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi)*

_____________________________________________________________
*(soyadı, adı, atasının adı)*

“____”__________ 20 ___ il tarixə təyin edilmiş ______________________
*(seçkilərin adı)*
seçkilərində həmin siyasi partiyalar blokunun adından maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə qismində qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirmək həvalə edilmişdir.

Siyasi partiyalar blokuna daxil olan partiyaların sədrləri:

1. ___________________________________________________________
*(partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı)*
2. ___________________________________________________________
*(partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı)*
3. ___________________________________________________________
*(partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı)*

.
.
.

_____________________________________________________________
*(partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı)*

**Qeyd:** *1. Vəkalətnamə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada təsdiq olunmalıdır.*
*2. Səlahiyyətli nümayəndənin səlahiyyət dairəsini həmin səlahiyyəti verən şəxs müəyyən edir. Belə olduqda, vəkalətnamədə bu hal öz əksini tapmalıdır.*
*3. Bu əlavə “Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) namizədin, siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələrinin statusu haqqında” Təlimatın 3 “e” saylı əlavəsidir.*

*Təlimata 7 ”b” saylı əlavə*

**V Ə K A L Ə T N A M Ə**

_____________________________________________siyasi partiyalar blokunun
*(siyasi partiyalar blokunun adı)*
nümayəndələrinin “___” ____________ 20___ il tarixli iclasının___saylı qərarına əsasən _____________________________________________
*(yaşayış yerinin ünvanı)*
yaşayan,_____________________________________________________
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi)*
malik olan________________________________________________
*(soyadı, adı, atasının adı)*

“____”__________ 20___ il tarixə təyin edilmiş______________________
*(seçkilərin adı)*
seçkilər(in)də həmin siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi qismində qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirmək həvalə edilmişdir.

_____________ ________________________________________________
*(imza)* *(vəkalətnamənin notariat qaydasında rəsmiləşdirilməsi həvalə edilmiş nümayəndənin adı, soyadı və atasının adı)*

**Qeyd:** *1. Vəkalətnamə notariat qaydasında təsdiq olunmalıdır.*
*2. Səlahiyyətli nümayəndənin səlahiyyət dairəsini həmin səlahiyyəti verən şəxs müəyyən edir. Belə olduqda, vəkalətnamədə bu hal öz əksini tapmalıdır.*
*3. Bu əlavə “Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) namizədin, siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələrinin statusu haqqında” Təlimatın 3 “ə” saylı əlavəsidir.*

*Təlimata 7 ”c” saylı əlavə*

**V Ə K A L Ə T N A M Ə**

________________________________________ siyasi partiyalar blokunun
*(siyasi partiyalar blokunun adı)*
nümayəndələrinin “____”_______ 20___ il tarixli iclasının ___ saylı qərarına əsasən ________________________________________
*(yaşayış yerinin ünvanı)*
yaşayan, ________________________________________ malik olan
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi)*

________________________________________
*(soyadı, adı, atasının adı)*

“____”__________20___ il tarixə təyin edilmiş ________________________
*(seçkilərin adı)*
seçkilərində həmin siyasi partiyalar blokunun maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi qismində qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirmək həvalə edilmişdir.

____________ ________________________________________
*(imza)* *(vəkalətnamənin notariat qaydasında rəsmiləşdirilməsi həvalə edilmiş nümayəndənin adı, soyadı və atasının adı)*

**Qeyd:** *1. Vəkalətnamə notariat qaydasında təsdiq olunmalıdır.*
*2. Səlahiyyətli nümayəndənin səlahiyyət dairəsini həmin səlahiyyəti verən şəxs müəyyən edir. Belə olduqda, vəkalətnamədə bu hal öz əksini tapmalıdır.*
*3. Bu əlavə “Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) namizədin, siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələrinin statusu haqqında” Təlimatın 3 “f” saylı əlavəsidir.*